# Bağlı qapı açaram...

## Şair-publisist, küllü-Qarabağın sevimlisi Əli Mahmudun söz xalçasından butalar



*Vaqif Bəhmənlinin təqdimatında*

(əvvəli ötən sayımızda)

**Məsələ budur ki, yüz illər boyu böyük zamanı saniyəsinəcən biri-birinin yanında, qapı-qapıya, nəfəs-nəfəsə yaşayan bu insanlar, Qarabağdan didərgin düşənlər indi Azərbaycanın dörd bir tərəfinə səpələniblər, 10-20 qatlı binaların mərtəbə və mənzillərində, zirzəmilərində gözdən itiblər, sanki görünməz olublar. İndi onlar vahid bir mentallığa malik region mühitini itirə-itirə, kollektiv gücünü azalda-azalda yaşayırlar. Onlar, ən yaxşı halda toyda-yasda, təsadüfən küçədə görüşür, doluxsuna-doluxsuna heç bilmirlər nə desinlər, nədən danışsınlar, danışmağa söz tapmırlar. Bu, ağır bir imtahandır! Məhz belə bir mərhələdə yüz minlərin yaddaşını oyatmaq, daha doğrusu, oyaq saxlamaq naminə Əli Mahmud kimi zəngin mənəviyyatlı, imanını, inadını, təmiz adını qoruyub saxlamış insanları dindirib dinləmək, heç olması onların xəyalının qanadında əzabkeş soydaşlarımızı müqəddəs Qarabağ hicrətinə çıxarmaq olduqca gərəklidir.**

Elə görünməsin ki, biz ikilikdə Qarabağ mövzusunun aktuallığını qorumaq missiyasını üzərimizə götürmək niyyətindəyik. Əsla, əksinə, onu bilirik ki, bu bəlaya düçar olduğumuz 30 ildən artıq bir dövdə Qarabağ uğrunda çarpışan bir bədii söz, sənətkar ordumuz var. Qarabağ münaqişəsinin tarixi xronologiyasını bütövləşdirmək naminə Azərbaycan milli jurnalistikası Çingiz Mustafayev, Salatın Əsgərova, Kazımağa Kərimov... kimi şəhidlər vermişdir. Eyni zamanda, bədii ədəbiyyatımızda Qarabağ mövzusu yazıçı-vətəndaş borcu kimi qavranılmış, Bəxtiyar Vahabzadə, Qabil, Nəriman Həsənzadə, Sabir Əhmədov, Fikrət Qoca, Anar, Elçin, Musa Yaqub, Xəlil Rza Ulutürklə yanaşı, sonrakı ədəbi nəslin nümayəndələri - Mövlud Süleymanlı, Seyran Səxavət, Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı, Hüseynbala Mirələmov, Eldar Baxış, Zəlimxan Yaqub, Mətləb Misir, Məmməd Oruc, Aqil Abbas, Əlmədar Quluzadə, Nemət Veysəlli, Vahid Əlifoğlu, Elçin Hüseynbəyli, Adil Cəmil, Ağacəfər Həsənli, Əjdər Ol, Əbülfət Mədətoğlu... və digərləri Qarabağ ağrısını, bu fəlakətdən çıxış yollarını canlandıran dəyərli nəsr, poeziya və publisistika əsərləri yaratmışlar...

Nə yaxşı ki, əyləşdiyim kreslodan qalxıb gah kondisionerin otağı isidib-isitmədiyini yoxlayanda, gah da qazın üstündə bir neçə saniyədən sonra qaynara düşəcək ağ, emallı çaydanın qapağını əlimi yandıra-yandıra açıb-örtəndə Əli müəllim məni tələsdirmirdi və mən bu düşüncələri başımdan keçirirdim, indi isə, aradan iki gün ötəndən sonra, daha Əli müəllimlə birlikdə deyiləm və təkcənə oturub o anlarda sürətlə fikrimdən keçənləri elə həmin sürətlə də kağıza köçürürəm! (Heç zaman qələmdən özgə sürətli yazı ləvazimatlarına - makinaya, kompüterə vərdiş edə bilmədim). Söhbət zamanı da qarşımda qalın dəftərçə, əlimdə qələm vardı, hər ehtimala qarşı "yeni jurnalistlər" sayaq telefonumun səs yazan düyməsini də basıb Əli müəllimin səsini rahat götürə bilən ən münasib nöqtəyə qoydum (öz aləmimdə) və dedim:

**- Əli müəllim, əvvələn sən bizə xoş gəlmisən...**

- Həmişə xoş gününüzə gələk, - Əli müəllimin pilə kimi yumuşaq və xışıltılı cavabına başımla razılığımı bildirir və sualıma davam edirəm.

**- Bu gün səninlə elə bir söhbət aparmaq istəyirəm ki, uzun da olsa, qısa da alınsa, oxuyub-bilənlər təsirlənsinlər, Qarabağda deyildiyi kimi, bizim də ürəyimizdən tikan çıxsın!**

- Vaqif, səhv etmirəmsə, səninlə tanış olub çörək kəsdiyimiz, bir-birimizə qardaşlıq ediyimiz vaxtdan 45 il ötüb. 45 il iki igidin ömrüdü. Səninlə söhbət etmək həmişə xoşdu. Yoxsa, hər çağırışa görə, belə çovğunda 40 kilometr yolu basıb Mərdəkana gəlmək mənlik deyil.

**- Peşmançılığa heç bir əsas yoxdu, qardaş, gördün ki, yoldan karlı bazarlıq elədik. Qoy bir az söhbətimiz irəliləsin, qəşəng stol açacağam... Rəhmətlik Şahin müəllim yadındadı, "Sovet kəndi" qəzetində bir yerdə işləmişik. Rəhmətlik Nəriman Zeynalovun müavini idi...**

- Niyə yadımda deyil, Qarabağı birlikdə çox gəzib dolaşmışıq, dönə-dönə ailəlikcə Şuşada qonağım olub. Şahin müəllimin qardaşı Abbas dayı İkinci Dünya müharibəsi zamanı itkin düşmüşdü. Sonra məlum oldu ki, Amerikada yaşayır. Cahid Quliyev, Oqtay Quliyev Şahin müəllimin qardaşlarıdı, hər ikisi görkəmli alimdi - biri filosofdu, biri musiqi nəzəriyyəçisi, gözəl tar ifaçısı. Evləri Ağdamdaydı, ağdamlı kimi tanınırdılar, mən bilən, əsilləri Malbəylidəndi...

**- Pis deyil yaddaşın, maşallah, hə, qardaş, o Şahin müəllim kefi yaxşı olanda özünəməxsus şəkildə Qarabağ lətifələrini söylər və özü də dediyi lətifəyə şaqqanaq çəkib gülərdi. Belə bir yumor söylədi. İki şuşalı şəhəri gəzib dolaşandan sonra günorta yeməyi vaxtı üz qoyurlar evlərinə tərəf. Elə ki, bunlar evi ən yaxında olan şuşalının darvazasına çatır, həmin şuşalı zarafatla ikinci şuşalının sinəsindən geri itələyə-itələyə deyir: - Ə, bilirəm ey, sən bizə getməzsən, yox ey, vallah, sən bizə getməzsən... - deyə-deyə bu şuşalı o biri şuşalını qapısının ağzından xeyli aralayır.**

Əli müəllim xısın-xısın gülür, dərhal da dillənir:

- Yumor şuşalının həyat tərzidir. Yüz faiz bunu bir başqa yerin adamı deyil, şuşalı şuşalı haqqında düzüb-qoşub. Hətta, məzmun onların xeyrinə olmasa belə, şuşalı qarşısındakı həmsöhbətin kefini xoş eləmək üçün, yaxşı bir əhvalatı eşitmək xətrinə, əstafurullah, canından keçər...

**- Bir yana baxanda, - dillənirəm - mənim də Şuşaya qatışacağım var.**

- O nə təhər olur? - Əli müəllim soruşur.

**- Deyim nə təhər olur. Şuşa şəhərinin banisi kimdi?**

- Rəhmətlik Pənahəli xan...

**- Pənahəli xan hansı nəsildəndi? Bəhmən elinin Sarıcalı nəslindən. Səhv etmirəm ki?**

- Yox, düppədüz. Mirzə Adıgözəl bəy "Qarabağnamə"sində belə də yazıb, Yusif Vəzir "Od içində" romanında, daha bir çox yazarlar, alimlər buna istinad eləyiblər...

Mən daha bir xatırlatma verib, tezliklə müsahibəmizin əsas suallarına keçmək barədə düşünürəm...

**- Qarabağ xanları özlərinin ilkin dədə-baba yurdlarına, yəni Qarabağın Arazqırağı ərazilərinə və insanlarına hər zaman böyük ehtiramla yanaşıblar. Oralarda suvarma ehtiyacını ödəmək üçün Natəvanın hər addımına qızıl pul xərcləyib çəkdirdiyi Xanqızı arxının tirələri hələ də bizim Böyük Bəhmənli ilə Bala Bəhmənli kəndlərinin arasında qalmaqdadır.**

- Qarabağ xanlarının, eləcə də Xanqızı Natəvanın aran Qarabağda təsərrüfat işləri aparmağına dair məlumatım var. Amma o arxın sizin tərəflərdə hələ də qalmağını indi eşitdim...

**- Əli müəllim, deməyim odur ki, mən Qarabağın hər bir güşəsində, o cümlədən, Şuşada qonaqpərvərliyin ən yüksək səviyyəsinin şahidiyəm.**

- Əlbəttə, elədir. Amma, xırda bir nüansı da qeyd etməyi özümə borc bilirəm. Şuşanı gətir gözünün önünə, yeri gələndə mən yaddaş kimi, daha doğrusu, yaddaşımızda heyrət doğuran məqamlar kimi, Şuşanın tarixi dünənlərindən misallar çəkəcəyəm. Əsası 1750-ci illərdə qoyulan Şuşa çox tezliklə Azərbaycanın ən gur şəhərlərindən birinə çevrilmişdi. Oranın havası cənnət havasıydı. Yay vaxtları tarixən Şuşaya gəlib qonaq olanların sayı yerli əhalinin sayından dəfələrlə çox olurdu. Bu faktdır. Bu qədər insanın 4 - 5 ay boyunca, ərzağı əsasən arandan gətirilən balaca bir şəhərdə yerləşməsi, yeyib-içməsi, yatması, digər xidmətlərdən istifadəsi heç də asan başa gəlmirdi. Hamı Şuşaya dincəlməyə gəlir, axı, şuşalı da dincəlməlidir. Bu halda, yalnız bir davranış məsələni yoluna qoya bilər: fədakarlıq! Şuşalılar bu fədakarlığı əsasən bacarırdılar. Şuşada da iş yerləri az idi, böyük aqrar təsərrüfatlar yaratmağa, təbii ki, dağ şəraiti elə də saxavət göstərmirdi.



Digər tərəfdən, mən ötən əsrin 20-ci illərindən sonranı, yəni 1992-ci ilə qədər olan 70 illik bir dövrü nəzərdə tuturam, bu başı bəlalı şəhər erməni rəhbərlərinin xain təzyiqi altında sıxılırdı.

Məhz bu imkansızlıq, indi düşünürəm, ola bilər ki, hansısa bir qonaqda incik bir təəssürat da buraxıb, təkrar edirəm ki, bu yalnız və yalnız əhalinin maddi durumundan qaynaqlana bilərdi. Ayağı yorğana görə uzatmaq nə o yorğanın altında yatana, nə də qıraqdan bu halı müşayət edənə xoşdur. Tutalım, hər cürə imkan var, yemək bol, yatmaq yeri gen... 4-5 ay ara vermədən gələn qonaqları qarşılayıb, öz həyat tərzini qonağa uyğunlaşdırıb yaşamaq da o qədər asan məsələ deyil, axı bu, hər şeydən öncə fiziki və ovqat yorğunluğu törədir. Gələn qonaq bilmir, heç onun vecinə də deyil ki, ev yiyəsi on gündən bəri qulluğunda durduğu ayrı bir qonağı, nə az, nə çox, cəmi 2 saat bundan öncə arana, yaxud Qubadlı, Laçın tərəflərə yola salıb...

Bir yol mənim də başıma belə bir qəribə əhvalat gəlib. "Laçın" qəzetinin redaktoru var idi, Hüseyn müəllim, bərk dost idik. Laçın şəhəri səfalı, əsrarəngiz, Şuşanın sivil həyatına baxanda, daha doğal olsa da xidmət şəraitinin zənginliyinə, sanatoriya, otel, böyük bazar, mədəniyyət tədbirləri və s. səbəblərə görə, digər qonşu rayonların sakinləri kimi, laçınlılar da çox vədə yemək-içməyə, gəzib-dolaşmağa Şuşaya gedirdilər. Hər dəfə də ayrılanda dil tökürdü ki, qardaş, bir yol da sən Laçına gəl, qonağım ol. Çox təklifdən sonra, bir yay günü yollandım Laçına. Hüseyn müəllimin evini tapıb darvazanı döydüm. Gördüm alaqapı açıqdı, lap həyətin içinə keçdim. Səsə bir qadın artırmaya çıxdı. Salam verdim, soruşdum ki, Hüseyn müəllimin evi buradı.

Qadın hirslə söylədi:

**- Tutaq ki, buradı... - Sidqim sıyrılsa da, özümü toplayıb, bayaqkından xeyli aşağı səslə, bir az da günahkarcasına:**

**- Hüseyn müəllim evdədi?** - soruşdum.

Qadını od aldı.

**- Ay qardaş,- dedi, - bilmirəm kimsən, nəçisən, Hüseyn müəllimin evi buradı, amma Hüseyn müəllim evdə yoxdu, yoxdu... yoxdu ey, yoxdu!..**

Çox peşman olub:

**- Neynək, - dedim, - yoxdu, yoxdu də...**

Və necə ki, dinməzcə gəlmişdim, elə dinməzcə də qapıdan çıxmağa tələsdim. Maşına əyləşdiyim anda gördüm budu, Hüseyn müəllim özünü yetirib. Mənə çatan kimi, Əli, deyib üstümə şığıdı, qucaqlaşma, görüş, öpüş. Baxdım ki, qardaşımın üz-gözündən əməlli-başlı yuxu tökülür. Dedim ə, bu nə məsələdi?

Hüseyn:

**- Soruşma, qardaş,- dedi, - budu, on gündü qonağım üçü gedir, üçü gəlir, ev üzü görmürəm, o bulaq sənin, bu bulaq mənim, heç bir saat olmaz qayıtdığım. Ayaq üstdə zor-güc dayanırdım. Yerimə girib evdə tapşırmışdım ki, bir az yatıb dincələcəyəm, kim soruşsa, deyin evdə yoxam. Bu macalda da sən gəlmisən...**

Dedim:

**- Qağa, indi nağayrım, çıxıb gedim Şuşaya?**

Hüseyn dedi:

- Yekə kişisən ə, getmək nədi? Evin içində üç gün də oturub-dursaq, bizə güldən ağır söz deməzlər. Bunları haldan-təbdən çıxardan odur ki, qıraqdan qonaq gələndə bir tikə yağlı əppəyə dönüb qalxıram ceyran belinə, ilim-ilim itirəm günlərnən... Hə, Vaqif, bu da sənə olmuş lətifə, indi buyur, keç əsas mətləbə, soruş, nə soruşacaqsan...

**- Əli müəllim, bütün insanların həyatı eyni gündən başlayır, doğum günündən. Nə zaman, harda dünyaya təşrif buyurdun. Doğulduğun günü təsvir edə bilərsənmi? Məncə, valideynlərin, səndən yaşlı yaxın-simsarların dediklərinə söykənib şəxsən mənə də gərəkli olan o günü bu günümüzə çəkib gətirə bilərsən...**

- Rəhmətlik anam Süreyya xanım (duruxub, doluxsunur)...

Onu düşdüyü darlıqdan qoparıb ürəkləndirmək istəyirəm:

**- Yaxşı olacaq ey, qardaş, söhbətimizin əsas hissəsinə ana kəlməsiynən başladın. Bu elə ana xeyir-duası deməkdi.**

- Bunu sən bilirsən, anam, 73 yaşında ahıl bir qadın Meşəlidə ermənilərin törətdiyi qırğında şəhid oldu... O zaman, 1992-ci ilin dekabr ayında mən Şuşada, atam, anam və qardaşım kənddə - Meşəlidə idi... Bu təfsilata sonra bir də qayıdarıq. Hə, anam mənə uşaqlığımdan söhbət açanda deyirdi ki, sən doğulmuşdun, heç qırx günün tamam olmamışdı. Hana asmaq istəyən hansısa bir qonşu məni səsləyib, deyirdi ki, ay Süreyya, o Əli ayağı düşərli uşaqdı, onu bük-bürü yorğançaya, çıxart bizim qarşımıza, ərişin-arğacın, ipin, kirgidin, qayçısın hazırlamışıq, hana asacağıq... Sonralar da kəndə kimsə bir iş başlayanda məni həmin o işin üstünə çağırtdırırdılar ki, ayağın yüngüldü.

Anamın dediyinə görə, sübh çağı, hələ günəş üfüqdən boylanmamış, havaya nəfəs dəyməyən bir vaxtda doğulmuşam. 1949-cu ildə...

**- Hansı ayda?**

- May ayının 1-də...

**- Booy, mayovkada, dünya xalqlarının həmrəylik günündə, onun üçün səni hamı belə çox istəyir ey...**

- Allah da sizi istəsin ... Hərdən elə bilirəm ki, insan həyatından ötüb keçən zamanın, vaxtın ən unudulmaz hissələri bizim ruhumuzun şəklindədir. Heç unuda bilmirəm uzaq keçmişdə qalan o müqəddəs çağları. Yaza düşür, anamın təndir çörəyinin ətri kəndi bürüyərdi. Qeybət bilməz, hamıya xeyirxahlıq edər, xüsusilə qız övladı olan gəlinlərə, qız köçürən analara yardım əlini uzadardı. Ən çox qorxduğu müharibə xəbərini eşitmək idi. Qonşu kəndlərdə, qohum-əqrəbada qadınlar xalça, palaz, vərni, fərş, fərməc, yun jaket, xurcun, naxışlı corab, nə bilim daha nələr... toxuyanda ondan məsləhət alar, anam isə evimizdəki xalça-xalıların çeşidinə baxmaq üçün gələnlərə məsləhətini əsirgəməzdi. Beş qardaş, üç bacının evlərini öz əllərilə toxuduğu xalı-xalçalarla bəzəmişdi.

(ardı növbəti sayımızda)